# Abdulla Şaiqin 130 illik yubileyi qeyd olundu



**Martın 9-da Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Gənc Tamaşaçılar Teatrında Azərbaycanın görkəmli ədibi, maarif və mədəniyyət xadimi Abdulla Şaiqin anadan olmasının 130 illik yubileyinə həsr olunmuş tədbir keçirildi.**

Tədbirdə mədəniyyət və turizm naziri Əbulfəs Qarayev, AMEA-nın və Azərbaycan Yazıçılar Birliyinin məsul şəxsləri, Azərbaycanın elm və mədəniyyət xadimləri, Abdulla Şaiqin tədqiqatçıları, ali məktəblərin professor və müəllimləri, tələbələr iştirak edirdilər.

Əvvəlcə Abdulla Şaiqin həyat və yaradıcılığına həsr olunmuş videoçarx nümayiş etdirildi.

Yubiley tədbirini giriş sözü ilə mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyev açaraq A.Şaiqin həyat və yaradıcılığı haqqında danışdı. Ədibin Azərbaycan ədəbiyyatına xidmət edən bütöv bir nəslin müəllimi olduğunu diqqətə çatdıran natiq bildirdi ki, xalq ədəbiyyatını, aşıq sənətini dərindən bilən, uşaq dünyasına yaxşı bələd olan sənətkarın yaradıcılığında bu cəhətlər özünü qabarıq şəkildə büruzə verir.

AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik Bəkir Nəbiyev, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar ədibin şəxsiyyəti, həyat və yaradıcılığı, bədii və elmi irsi haqqında danışdılar. Qeyd olundu ki, özünəməxsus yaradıcılıq üslubu olan A.Şaiq ədəbiyyatımıza bir-birindən maraqlı bədii əsərlər bəxş edib. Onun ədəbi irsi bu gün də oxucular tərəfindən maraqla qarşılanır.

Tədbirdə həmçinin yubiley münasibətilə nəşr olunan "Abdulla Şaiqin Mənzil Muzeyi. 1991-2011" kitabının təqdimatı oldu. Mərasimdə ədibin müxtəlif janrlı əsərləri, şeirlərinə yazılmış musiqi nümunələri təqdim edildi, Gənc Tamaşaçılar Teatrının hazırladığı "Qaraca qız" tamaşasından, Milli Dram Teatrının artistlərinin ifasında "Eloğlu" dramından səhnələr göstərildi. Tədbirdə Abdulla Şaiqin vaxtilə qadağan olunmuş əsərlərinin, türkçülük, vətənpərvərlik mövzulu və lirik şeirlərinin ifası maraqla qarşılandı.

**C.Zərbəliyev**